# M Ü N D Ə R İ C A T

"BABA, MƏNƏ MƏNDƏN NAĞIL SÖYLƏ" ........ 13

**I FƏSİL**

**ƏRƏFƏ**

DÖVRÜN TARİX KİTABLARI ........ 16
1980-ci İLLƏRİN MƏNZƏRƏSİ ........ 20
AZƏRBAYCAN SOSİALİZMİNİN ÖZƏLLİKLƏRİ ........ 24
HEYDƏR ƏLİYEV ........ 26
KAMRAN BAĞIROV ........ 29
QORBAÇOV MÜƏMMASININ AÇARI ........ 34
ERMƏNİ İRRİDENTİZMİ MƏRKƏZDƏN DƏSTƏKLƏNİR ........ 35
MÜNAQİŞƏ BİZDƏ NECƏ BAŞLADI ........ 42
XALQIN OYADILMASININ FƏNDLƏRİ ........ 48
İSA QƏMBƏROV. İLK TANIŞLIQ ........ 52
MÜBARİZƏNİN "DƏDƏ-BABA" ÜSULU ........ 53
SUMQAYIT TALANI ........ 56
AKADEMİYA MİTİNQLƏRİ ........ 69
İLK ÜMUMŞƏHƏR MİTİNQİ ........ 73
ƏBDÜRRƏHMAN VƏZİROV ........ 78
NAKAM BAKI ALİMLƏR KLUBU ........ 82
MOSKVA GUYA BARIŞDIRIR ........ 83
QEYRİ-RƏSMİ BAK AKP-yə KÖMƏK EDİR ........ 86

“ADIM TARİXƏ QARA HƏRFLƏRLƏ YAZILIR” ....................91
TALAN TƏHLÜKƏSİ SOVUŞDU....................96
VƏZİROVLA GÖRÜŞ....................97
XALQ CƏBHƏSİNİN SORAĞINDA ....................102
AKP ZAVALA UĞRAYIR....................119
CƏBHƏYƏ QARMAQ ATIRLAR ....................121
MEYDAN XALQI OYATDI, QAÇIRIB BAŞINI DİVARA ÇIRPDI ....................123
HƏSƏN HƏSƏNOV ....................127
“DİRÇƏLİŞ!” (XALQ NECƏ DİRÇƏLDİ) ....................129
MOSKVA LİBERALLARININ İCLASINDA....................156
SSRİ-də İLK ALTERNATİVLİ SEÇKİ....................160
AXC MTM MİLLƏTÇİLƏRLƏ BİRLƏŞİR....................164
AXC MTM İKİ YOL AYRICINDA ....................168
ƏBÜLFƏZ ƏLİYEV ....................169
İLK QƏRARLAR....................174
MƏŞUM SAĞLIQ....................184
“ÖZBƏK” NAXÇIVANLININ ÖNCƏGÖRMƏSİ....................188
ANTİBOLŞEVİK CƏBHƏNİN “GİZLİ” YIĞINCAĞI ....................193
HAKİMİYYƏT BİZİ NƏŞƏXORLARA TAY TUTUR ....................198
QARDAŞLAR, YANIRIQ, KÖMƏYƏ GƏLİN! ....................202
AXC TƏSİS KONFRANSINA HAZIRLAŞIR....................209
AXC-nin TƏSİS KONFRANSI....................223
ORDUBADLILARIN ÇAYXANASI....................231
MİLLƏTÇİLƏRİN ÖZBAŞINALIĞI BAŞLANDI....................237
OLEYNİKİN KOMİSSİYASI ....................242
AĞDAM, RÜŞVƏT, DÖVLƏT VƏ QİSMƏT ....................246
AXC İH MƏNİ QARABAĞA TƏHKİM EDİR....................247
AXC HAKİMİYYƏTİN ÜSTÜNƏ GEDİR ....................255
ETİBAR QOVULSUN!....................259
SSRİ-də İLK DƏFƏ ....................262

MOSKVADA SİYASİ ÇƏKİŞMƏ ....................................................................269
POLYANİÇKONUN AXC-yə TƏLƏSİ ............................................................285
AXC "İZMİR" RAYON KONFRANSI ............................................................292
ƏBÜLFƏZ ƏLİYEVDƏN DQMV-yə YANACAQ QATARI .............................299
AXC ALİ MƏCLİSİNDƏ NASİZM DƏRSLƏRİ ..............................................303
AXC-də ÇEVRİLİŞ DAVAM EDİR..................................................................314
ELMLƏR AKADEMİYASI NƏ İDİ? ................................................................315
AKADEMİYA ALİMLƏRİ ...............................................................................316
AKP MK AXC-dən MƏSLƏHƏT İSTƏYİR ....................................................323
AXC RAYONLARDA NECƏ TƏŞKİLATLANIRDI?........................................330
"PROFİLAKTİKA"..........................................................................................335
TƏDRİCİ ÇEVRİLİŞ .......................................................................................335
"İH İŞLƏMİR" BÖHTANI SAZ İŞLƏYİR .......................................................343
İKİNCİ MÜNAQİŞƏ OCAĞINI SÖNDÜRDÜM ..............................................348
BAKI QAN İÇİNDƏ, BAKI CAN VERİR .........................................................357
CƏLİLABAD QİYAMI ....................................................................................373
PƏNAH HÜSEYNOV .......................................................................................375
AXC AKP-ni TƏFTİŞ EDİR ............................................................................376
"MİLLƏT, MİLLƏT" HAYQIRARAQ...............................................................382
BİZ ÖLƏRİK, QARABAĞI VERMƏRİK?........................................................383
TƏXRİBAT ZƏNCİRİNİN NÖVBƏTİ HALQASI ............................................384
BƏYLƏR QANLI YANVARDA .......................................................................404

**II FƏSİL**

**QANLI 20 YANVAR CƏZA TƏDBİRİ – SSRİ-nin ÖLÜM ZƏNGİ**

"20 YANVAR" AXC-yə ETİMADI MƏHV ETDİ...............................................424
MƏSULİYYƏTDƏN QAÇA BİLDİLƏR.............................................................434
AYAZ MÜTƏLLİBOV ......................................................................................437
AXC YUXARIYA YOLLAR AXTARIR .............................................................439
PRAQA KONFRANSI ......................................................................................453

AXC SEÇKİNİ UDUZUR....454
BALTİKYANI CƏBHƏLƏRİN VƏ AXC-nin AĞLI....464
NƏHAYƏT, AXC AŞKAR "H.Ə." DEYİR....468
"İSTİQLAL" RƏSMİ ÇAP OLUNUR....472
AXC VƏ FİKİR AZADLIĞI....474
AXC ÖZÜNƏ "BÖYÜK QARDAŞ" TAPDI....476
"KOLTSO" ƏMƏLİYYATININ ASTARI....478
GƏLƏCƏKDƏN BİXƏBƏRLƏR....482
PREZİDENT OLMAQ İSTƏMİRƏM....491
ALLAH QORBAÇOVA LƏNƏT ELƏSİN!....494
QKÇP....497
UĞURSUZ KOMMUNİST QİYAMI SÜQUTU SÜRƏTLƏNDİRDİ....499
SSRİ PARLAMENTİNİN SON İCLASI....505
İNTERVÜ – KONTRVÜ....518
QARAKƏND SƏMASINDA TERROR....519
AXC ÇEVRİLİŞİNİN SON MƏRHƏLƏSİ....525
DAŞALTI....535
MƏLUMAT MOSKVADAN DEYİL, QƏZETİMDƏNDİR!....543
"QARABAĞ MÜŞAVİRƏSİ"NDƏN XOCALIYA....546
AXC, NƏHAYƏT Kİ, MÜTƏLLİBOVU DEVİRDİ....548
BAŞSIZ QALMIŞ DÖVLƏT....564
RÖVŞƏN....570
ŞİKAR ORTADADIR, TAMAH DİŞ ALTDA....575
HEÇ KİM ZİYAN ÇƏKMƏDİ?....601
QURDLAR OVLAĞINDA QUZU AZƏRBAYCAN....602
PREZİDENT İSA QƏMBƏR....608

**III FƏSİL**

**"YAŞASIN NAXÇIVANDAN GƏLƏN ŞURA HÖKUMƏTİ!"**

MİLLİ-BOLŞEVİZM YOLU İLƏ TAYFA HAKİMİYYƏTİNİN
QƏLƏBƏSİNƏ....614

AZƏRBAYCANIN İSVEÇRƏSİ – KƏLBƏCƏR ...............................................619
“XALQ” HAKİMİYYƏTƏ GƏLDİ...........................................................................621
RUSİYADA DA VƏZİYYƏT ELƏ BELƏDİR ...................................................627
NAŞI HƏRBİ STRATEGİYA..............................................................................629
VƏTƏNDAŞ CƏMİYYƏTİ FƏALLAŞIR.........................................................642
HAKİMİYYƏT CƏBHƏLƏŞİR ..........................................................................644
AXC VƏ ELMLƏR AKADEMİYASI .................................................................649
BƏDBİN ÖNCƏGÖRMƏMİN MƏŞUM GERÇƏKLƏŞMƏSİ ..........................652
NAXÇIVAN CƏBHƏÇİLƏRİNƏ LAYİQLİ CƏZA...........................................661
AXC-nin QANUNVERİCİ FƏALİYYƏTİ..........................................................670
PƏNAH, ÖZÜN BİLƏN YAXŞIDIR!.................................................................671
ETNİK MİLLƏTÇİLİK BOMBASI.....................................................................674
XAİNLƏR MÜƏYYƏN EDİLDİ ........................................................................678
BARIŞMAZ MÜXALİFƏTÇİLİYƏ....................................................................681
KƏLBƏCƏRİN HARAYINI EŞİTMƏDİLƏR....................................................682
SURƏT HÜSEYNOVUN ÜSYANI ....................................................................684
ELÇİBƏY CASUSLARI NİYƏ QORUDU? .......................................................690
DOSTLARI DA ONDAN NARAZIDIR..............................................................695
BAŞ NAZİR PƏNAH HÜSEYN..........................................................................697
O HANSI İKİ QARDAŞDIR Kİ... .......................................................................699
KƏLBƏCƏRİ DƏ VERDİLƏR ...........................................................................704
BƏS BU KEÇİ KİMDİR? ...................................................................................706
ÖVLADİ-KƏRPİC BƏYLƏR...............................................................................707
AXC VƏ SİYASƏT ELMİ ..................................................................................714
ÜSYAN GENİŞLƏNİR .......................................................................................716
YENƏ “ƏLİZADƏ QARDAŞLARINA ÖLÜM”................................................719
“GƏRDİŞİ-DÖVRANİ-KƏCRƏFTARA QIL TAMAŞA...” ..............................724
İNZİBATİ-AMİRANƏLİK SİSTEMİNİN BƏRPASI ..........................................727
TMMR QƏZİYYƏSİ...........................................................................................735

SİYASİ SƏHNƏNİN TARAŞLANMASI ....................................................739
YENİ KÖHNƏ DÖVR .......................................................................................747

## IV FƏSİL
## HƏRƏKATDAN SONRA DÜŞÜNCƏLƏR

"MİLLİ Ş" ƏMSALI ........................................................................................750
EHTİYAC, EY EHTİYAC! ...............................................................................752
TAYFA HAKİMİYYƏTİNİN CƏBHƏ RESURSLARI.......................................754
BMT-yə ŞİKAYƏTNAMƏ...............................................................................756
SOLLARIN AQİBƏTİ......................................................................................762
BƏS QARABAĞ? ............................................................................................763
ZƏFƏR MÖCÜZƏSİNİN SİRRİ .....................................................................766
SON SÖZ .........................................................................................................773
NAĞILIMIN QƏHRƏMANLARININ SONRAKI TALEYİ ..............................778

## “BABA, MƏNƏ MƏNDƏN NAĞIL SÖYLƏ”

Nəvəm Əminə yuxuya dalmazdan əvvəl məndən “Baba, mənə məndən nağıl söylə” istərdi. Mən də anlayardım ki, altı yaşlı uşaq üçün ən maraqlı və şirin nağıl özünün xatırlaya bilmədiyi, 2–3 il bundan əvvəlki hadisələr barədə hekayətlərdir.

Haqlıyam, ya yox, əmin deyiləm, fəqət məncə, xalqımız siyasi şüur baxımından uşaqdır, öz yaxın tarixini dürüst xatırlaya bilmir. Nə edək, öncül xalqların çoxdan iştahla yediyi “siyasi mədəniyyət” deyilən xörək “bizim evdə bişməyib, qonşudan gəlməyib”. Xalqımız siyasətdə heç zaman söz sahibi olmayıb. Qacarlar, Romanovlar, bolşeviklər nə vaxtsa Azərbaycan xalqından nə isə soruşmuşdularmı? Azərbaycan daim böyük dövlətlərin ovlağında şikar olub. Hər bir növbəti qalib məğlub etdiyi xalqımıza öz xeyrinə uyğun qondarma bir tarix nağılı danışıb və danışır. Bu səbəbdən öz gerçək tarixini bilməyən və təbii ki, ondan ibrət götürə bilməyən xalqımız elə hey eyni xətaları edir, eyni tələlərə düşür.

Məsələn, mövcud hakimiyyətin xalqımıza danışdığı nağılın müxtəsər məzmunu belədir:

“Biri var idi, biri yox idi, SSRİ adlı qara bir imperiya var idi. Bu qara imperiyada bir dənə ağ respublika var idi. Bu respublika nə üçün ağ idi? Çünki onun başında xalqı sevən və gecə-gündüz onun qayğısını çəkən Heydər Əliyev dururdu.

Məkrli düşmənlər onu hakimiyyətdən kənarlaşdıra bildilər. Xalqın qara günləri başladı. Düşmənlər hər tərəfdən onun üstünə ayaq açdı, torpaqlar getdi, dövlət az qala parçalanacaqdı. Xalqın yadına qeyrətli və müdrik oğlu Heydər düşdü, gəlib ondan xahiş etdi ki, qayıt hakimiyyətə, bizi xilas et. Lakin Heydər Əliyev

hakimiyyət istəmirdi, imtina etdi. Xalq bir daha, bir daha xahiş etdi. Nəhayət, Heydər Əliyev razılaşdı, qayıtdı hakimiyyətə, xalqa Qurtuluş gətirdi. Düşmənləri geri oturtdu, dövləti xilas etdi, pisləri cəzalandırdı, yaxşıları mükafatlandırdı...”

Özünü müxalifət adlandıran zümrənin nağılı isə belə ruhdadır:

“Biri var idi, biri yox idi, SSRİ adlı qara bir imperiya var idi. Bu qara imperiyanın içində zil qara bir respublika var idi. Bu respublika nə üçün zil qara idi? Çünki onun başında KQB generalı Heydər Əliyev dururdu.

Heydər Əliyev ömrü boyu xalqımızı əzərək zalım imperiyaya sədaqətlə qulluq etmişdi. Bunu qiymətləndirən imperiya ağaları onu Moskvaya yüksək vəzifəyə apardılar. İmperiya Azərbaycanın üstünə erməniləri qısqırtdı və təxribatlar törətdi. Xalqın qara günləri başladı. Bu zaman xalqın içindən mərd və qeyrətli oğullar çıxdı, xalqı ayağa qaldırdı və savaşa səslədi. Xalq ruhlanıb ayağa qalxdı, zalımları aşırıb hakimiyyəti vətən oğullarına verdi. Onlar xalq üçün əsl müdrik siyasət yürütməyə başladılar. Lakin xainlər və imperiyapərəst qüvvələr onları devirib hakimiyyətə yenidən Heydər Əliyevi gətirdilər. Xalqın yenə qara günləri başladı. Bu qara günlər yalnız xalqın qeyrətli və müdrik oğulları hakimiyyətə qayıdandan sonra qurtaracaq”.

Hakimiyyət elə hey öz nağılını, müxalifət öz nağılını söyləyir...

Mən də cürət edib xalqıma onun haqqında bildiyim və gördüyüm nağılı söyləyirəm. Xalqa ondan və onun haqqında olan qorxulu nağılı... Bu nağılın adı “Azərbaycan Xalq Cəbhəsi: yaranması, yüksəlişi, süqutu” ola bilərdi. Fəqət bu qurumun siyasət meydanına saldığı zümrə hələ də fəaldır, hələ də meydanda cövlan edib xalqımı feodal keçmişə sürükləyir, odur ki, süqut xeyli uzanır...

Oxucum nağılımın düzgünlüyünü yoxlamaq istəsə, buyursun, gününə-güzəranına baxsın, oxşar müsibətlərə giriftar olmuş digər xalqların nağıllarını oxusun, barəsində yazdığım hər bir hadisənin iştirakçısından “Beləmi olub?” soruşsun.

# I FƏSİL

# ƏRƏFƏ

# DÖVRÜN TARİX KİTABLARI

Bu maraqlı və mürəkkəb dövrə aid ədəbiyyat olduqca zəngindir. SSRİ-nin süqutuna dair kitabların sayı minlərlədir. Xatirələr, tədqiqatlar, romanlar...

Azərbaycana gəldikdə isə mənzərə bir qədər dəyişir. Dünyada bu dövr Azərbaycan ilə bağlı iki kitab bestseller sayılır: Tomas Qoltsun "Azərbaycan gündəliyi" və Tomas de Vaalın "Qara bağ" tədqiqatı.

ABŞ-da Azərbaycana təyinat almış diplomat və biznesmen ilk olaraq Qoltsun "Azərbaycan gündəliyi"ni oxuyur. Tomas de Vaalın kitabı isə beş dəfə dörd dildə (ingilis, rus, azəri və erməni) çap olunub və müəllifinə görkəmli qafqazşünas şöhrəti qazanıb.

Hər iki əsəri oxuduqdan sonra mən onları özüm üçün "çukça mahnıları" sırasına daxil etdim.

"Çukça mahnıları" nədir? Təsəvvür edin ki, çukça maralların sürüdüyü kirşədə əyləşib rəngarəngliklə fərqlənməyən təbiətə tamaşa edir və bundan ilham alıb mahnı oxuyur: "Hər yer qarla örtülüb. Mənim kirşəmi marallar rahat sürüyür. Günəş beş gündür ki, batmır. Mənim qarnım toxdur. Nə yaxşı ki, külək əsmir. Məni irəlidə isti alaçıq və yağlı xörək gözləyir..."

Yəni elmi tədqiqatların qiymətləndirilməsi baxımından bu iki əsər hadisələrin səthi təsviri mərhələsini adlamayıb elə burada ilişib qalıb. Həqiqi elmi əsər "təsvir" mərhələsindən sonra mütləq "təhlil", sonra "təsnif", sonra "müqayisə", ondan sonra isə "ümumiləşdirmə" və "qiymətləndirmə" mərhələlərini ortaya qoymalıdır. Bu iki əsərdə isə elə birinci mərhələ müşahidə olunur. Bu, təsadüfdürmü? Yəni müəlliflər böylə bəsitdirlərmi?

Mərhum Qoltsla şəxsi tanışlığım yox idi. Lakin de Vaalla yaxından tanışam və bilirəm ki, əsla bəsit adam deyil. Əksinə, dərin adamdır. Məhz dərin olduğuna görə əsərində "təhlil", "təsnif", "müqayisə", "ümumiləşdirmə" və "qiymətləndirmə" mərhələlərindən bilərəkdən vaz keçib. Nə üçün?

Məncə, hadisələrin mahiyyətinə varmaq və dərinə getmək ona və onun əsərinin sifarişçilərinə xeyir deyil. Tomas de Vaal "Qarabağ" kitabında münaqişənin başlanmasını və inkişafını bilavasitə erməni xalqının təbii istəyi ilə bağlayır. Bəli, dünyadan və mühitdən qəsdən təcrid olunsan, hadisələr sənin gözündə elə belə də cərəyan edəcək: "xalq istədi, xalq oyandı, xalq ayağa qalxdı" və sairə bu kimi dilxoşluqlar... Fəqət hadisələrin zahiri görüntüsündən əlavə, onun daxili və görünməyən, vəzncə daha ağır səbəbləri olur. Əsl alim və obyektiv tədqiqatçı zahiri hadisələrin təsviri ilə yanaşı bu dərin mətləblərdən də yazmalıdır. Lakin Tomas de Vaal yazmır, çünki yazsa, bəlli olar ki, erməni xalqı dünyanı idarə edən böyük qüvvələr tərəfindən ağılsız və bəsit kütlə kimi aldadılıb və oynadılıb, xalqların başına gələn müsibətlərdən həqiqətən faydalananlar isə indi vasitəçi kimi münaqişəni dondurub hər iki xalqı öz xeyirlərinə idarə etməyə çalışırlar. Tomas de Vaal yaza bilməz ki, strateji rəqibi olan SSRİ-ni dağıtmağa çalışan Qərb erməni faşizminə dəstək verdi ki, xalqlar qırğınında SSRİ dağılsın. Yaza bilməz ki, savadlı və təcrübəli Qərb diplomat və siyasətçiləri dəstəklədikləri erməni faşistlərinin minlərlə insanı öldürəcəyini və milyondan artıq insanı didərgin salacağını ən azı təxmin edirdilər, lakin öz siyasi məqsədlərinə çatmaq üçün erməni faşistlərinə demokrat dedilər. Müəllif yaza bilməz ki, indinin özündə kifayət qədər maliyyə, maddi və elmi-texniki potensialı olmayan Ermənistan dövləti özündən dəfələrlə varlı və böyük Azərbaycana qarşı ona görə duruş gətirir ki, Qərb və Rusiya Cənubi Qafqazın cıdır meydanında öz siyasi yarışlarını hələ də sona çatdırmayıblar və zəif Ermənistanı qidalandırırlar. Yaza